Ədəbiyyat qəzeti

“Ədəbiyyat qəzeti”nin

AZƏRBAYCAN ƏDƏBİYYATINDA CƏRƏYANLAR

II hissə

Əsəd Cahangir: - Mahiyyət hər iki təlim - həm hürufilik, həm də nitsşeçilik insanın latent idrak imkanlarının açılmasına əsaslanır. Ziddiyyətlər zahiridir. Bununla mən Nitsşeni öyrənməyin əleyhinə çıxmıram, deyirəm ki, dünyanı öyrənək, amma öncə özümüz öyrənək.

Azər Turan: - Biz axı Avropa mədəniyyəti ilə nəfəs alan bir dünyada yaşayırıq. Milli prinsiplərimizdən biri də avropalaşmaqdır. Dünya bu gün Avropadan ibarət deyilmi?

Əsəd Cahangir: - Elədir, amma Şpenqler hələ bir əsr öncə yazırdı ki, Avropanın qürubu başlayır. Avropa bir əsrdir ki, çökür.

Azər Turan: - Şpenqler bunu 100 il bundan qabaq deyib. Şpenqlerin dediyi kimi oldumu? Avropa çökdümü? Qürub etdimi? Hansı Avropa çökdü?

Rüstəm Kamal: - XX əsrdə dövrün tragizmini kəskin hiss edən modernizm çıxış yolunu yeni renessansda axtarırdı. Modernizmə elə gəlirdi ki, yalnız Renessans Şpenglerin bəyan etdiyi "Avropanın qürubu"nun qarşısını ala bilər. Qərbin bədii fikri öz sivilizasiyası üçün yeni dini əsas axtarırdı.

Əsəd Cahangir: - Mənə elə gəlir ki, ədəbiyyat postmodernizmdən ibarətdir demək özü də bir totalitar təfəkkürdür. Çünki bu başqa "izm"ləri görməyə bizə imkan vermir. Cavanlar var ki, o qədər də püxtələşməyib, görürlər ki, hamı postmodernizm deyir, düşünür ki, görəsən burda nə var? Hamı qoşulur bu işə, burdan da təqlid və tənəzzül başlayır

Rüstəm Kamal: - Çağdaş ədəbiyyatda o zaman "yeni formalar yaranır ki, cəmiyyətin yeni, dəyişən obrazını əks etdirir. Yeni cəmiyyət yeni yazı texnikası tələb edir. Ona görə də ədəbiyyatda istənilən "izm"i mühakimə etmək yox, dərin ictimai dəyişikliklərin əlaməti kimi alqışlamaq lazımdır.

Azər Turan: - Mühüm məsələlərdən biri bu nöqtədədir. Bizdə modernizmin dili yaranmadı. Dil dəyişimi əlbəttə, olacaqdı. Təbii axarla davam etsəydi. Bu gün kimsə Cavidin dilini sintetik dil adlandıra bilər, Hüseynzadəni dilimizi anlaşılmaz bir hala gətirməkdə suçlaya bilər. Amma tutaq ki, Avropada dildəki Babil sintezinə görə heç kəs Coysu qınamır. Hətta Coys bəzən on müxtəlif dillərdən yararlansa da qınanmır.

Həmid Herisçi: - 20-30 ildir biz bunları eləmək istəyirik, dəyişmək eləmək, filan, biz bunun nəticələrini çox yaxşı başa düşürük e. Burda bıçağı nəinki sonə qabaqdan, hətta arxadan saplayacaq öz arkadaşların. Mən burada iki böyük, ciddi şeyi özümçün əxz elədim. Birinci, deyildiyi kimi, təsnifat olmalıdır, çox ciddi bir təsnifat olunmayıb. İkinci, deyildi ki, imitasiya xarakteri daşıyıb Azərbaycan ədəbiyyatında "izm"lər. Bunların hamısı həqiqətdir.

Rüstəm Kamal: - Azər müəllimin sözünə - Coysla bağlı xatırlamasına qüvvət. XX əsrin ən yaxşı romanını yazmaq üçün Coys yeni yazı üsulu yaratdı, adi təhkiyə metodunu mifoloji metodla əvəz etdi.

Yeri gəlmişkən, bir qəribə məqamı da qeyd edim. 80-ci illərdə "Uliss"in rus dilinə tərcüməsi "İnostrannaya Literatura"da çap olunanda, jurnalın tirajı kəskin sürətdə aşağı düşdü. Ümumiyyətlə, "izm"in daşıyıcıları ruhən inqilabçı idilər, çünki dünyanı dəyişmək istəyirlər. Məsələn, futuristlər rus cəmiyyətinin ən ardıcıl və radikal inqilabçıları idilər. Onlar Oktyabr inqilabında dünya inqilabının baş məşqini görürdülər. Yaxud dahi avanqardist Mayakovski...

Elnarə Akimova: - "İzm" məsələsi elədir ki, özü də çoxsaylı dil dəyişmələri üzərində gəlir.

Azər Turan: - Sənətdə inqilabçı olmazdan qabaq, mükəmməl təhsil görək deyilmi? Tutaq ki, Eliot Parisdə Sarbon Universitetini də, Amerikada Harvard Universitetini də bitirmişdi. Sanskrit dilini də öyrənmişdi. Şərqi mükəmməl bilirdi. Eliot Ömər Xəyyamın təsiri ilə şair olmuşdu. Tutaq ki, Əli bəy Hüseynzadə də Bodenştedtin Ömər Xəyyam barədə məqaləsini alman dilindən tərcümə etmişdi, Peterburq Universitetini təbiətşünaslıq, İstanbul Universitetini tibb ixtisası üzrə bitirmişdi, dünyanın əksər aparıcı dillərini bilirdi. Bodlerin "Şər çiçəkləri"ni fransızcada, Hartmanın pessimist içərikli fəlsəfi kitablarını alman dilində oxumuşdu. Güclü ədəbiyyatşünaslığın yaranması üçün, ən azı, mötəbər təhsil lazımdır.

Həmid Herisçi: - Bizim də təhsilimiz pis deyil. Biz də çox ciddi təhsillərdən keçmişik. Sadəcə, Azərbaycanda heç kim "izm"lə məşğul olmaq istəmir. Heç kim ekstrim olmaq istəmir. Heç kim axara qarşı çıxmaq istəmir. Axara qarşı çıxmalısan, küləyə qarşı getməlisən. Kim küləyə qarşı gedir ədəbiyyatda? Hamı küləyə qoşulub gedir. Yel ilə gələn, yel ilə də gedəcək. Sən elə get ki, yel səni apara bilməsin, sən yeli apar. "İzm" odu.

Əsəd Cahangir: - Sizinlə də, Azər müəllimlə də tam razıyam ki, bunun günahı ilk növbədə ədəbiyyatşünaslıq elmindədir. Ədəbiyyatşünaslıq elmi ədəbiyyatı maarifləndirməlidir. Çünki biz elə bir zamanda yaşayırıq ki, bəlkə də ədəbiyyat tarixində ilk dəfə olaraq məhz postmodernizm dönəmində nəzəri təfəkkür bədii təfəkkürü qabaqlayıb. Elm o qədər inkişaf edib ki, artıq nəzəri təfəkkür bədii təfəkkürün hazır məhsullarını ümumiləşdirməklə məşğul olmamalıdır. Həm də onun qarşısına keçib, işıq yandırmalıdır onun yolunda. Qərb ədəbiyyatında bir əsrdir ki, belədir: Freydin təlimidir, Levi Strosun təlimidir, postmodernizm təlimidir, bunlar bədii prosesin önündə gedib, ona yol göstəriblər. Amma bizdə postmodernizm artıq 20 il idi mövcud idi, Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu yalnız bundan sonra başladı bu problemlərlə məşğul olmağa. Təxminən 2005-ci ildən sonra başladılar bu haqda dissertasiyalar yazmağa, özünüz orda işləyirsiz bunları məndən yaxşı bilirsiz, Elnarə xanım. Mən buna görə konkret olaraq heç bir təşkilatı və şəxsi qınamıram. Bu nə Ədəbiyyat İnstitutunun günahıdır, nə onun rəhbərliyinin, nə ayrı-ayrı alimlərimizin. Bu bizim xalqın ümumi intellektual durumu ilə bağlı haldır. Amma xalqın da günahı deyil. Biz Şərq mədəniyyətindən keçmişik birdən-birə Qərb mədəniyyətinə və 50 ilin, 100 ilin içərisində birdən-birə Avropa ilə bərabər at başı yürütmək çox çətindir.

Burada bədbin notlar səsləndi, mən onları inkar etmirəm, həqiqət payı var onlarda. Amma mən ədəbiyyatımızın hazırkı durumu ilə bağlı o qədər də bədbin deyiləm. Məsələn, ədəbiyyat tariximizdə ilk dəfə olaraq, məhz postmodernist təfəkkür əsasında yazılmış "Yarımçıq əlyazma" romanı ilə Azərbaycan yazıçısı Nobelin qapısını döydü. Bu təkcə Kamal Abdullanın yox, bütün ədəbiyyatımızın uğurudur. Postmodernizm olmadan son 20 illik

Əsəd Cahangir: - Qərb ədəbiyyatında bir əsrdir ki, belədir: Freydin təlimidir, Levi Strosun təlimidir, postmodernizm təlimidir, bunlar bədii prosesin önündə gedib, ona yol göstəriblər.

ədəbiyyatımızı təsəvvür etmək mümkün deyil. Odur ki, postmodernizmi mən mənfi hal saymıram. İyirmi il öncə o lazım idi. Çünki əsrlərlə üst-üstə yığılmış, ərp bağlamış sxolast düşüncədən xilas olmaq tələb olunurdu. Postmodernizm gəldi, düşüncələrimizə rekonstruksiya elədi, onların bəzilərini dağıtdı, bəzilərini dəyişdi, redaktələr etdi. İndi beyinlər təmizlənib artıq, ərp bağlmış o miflərdən xilas olub müəyyən qədər. İndi ədəbiyyat artıq yeni inkişaf məcrasına çıxa bilər. Amma yenə də postmodernizmi çərçivəsində qapanıb qalmaq, Həmidlə tamamilə razıyam ki, postmodernizmi faydalı bir təzahürdən avtomatik olaraq zərərli bir meylə çevirə bilər. Hər zamanın öz hökmü var.

Həmid Herisçi: - Əsəd, sənin yaxşı bir sözün vardı ki, müasir postmodernist roman yazanlar əsəri başlayır Allaha təvəkkül, sonra görür ki, o romanı qurtara bilmir, romanı Əzrayılın köməyi ilə bitirir, yəni qəhrəmanı öldürür. Və sübut elədin ki, Azərbaycanda son dövrdə yazılmış bu əsərlərin çoxu imitasiyadır. Bunlar xarici təsiri gətirirlər, yerli ənənələrdən qopublar, müasir dövrün ədəbiyyatını bilmirlər, postinsana qarşı çıxırlar. Bunların əsas qəbahəti odur ki, bunlar romanlar yazırlar ki, guya romandır. Məlum oldu ki, bunlar dekadansdır. Bu postmodern də deyil. Sən sübut eləyirdin ki, elə sonluq ola bilməz. Siz də bilirsiz ki, postmoderndə ölüm səhnəsi və ya ölüm mütləq olmamalıdır. Son sual qoydun ki, bütün müəlliflər niyə ölür. Görürsüz, ədəbiyyatşünaslıq qarışdı məsələyə, konkret hədəflər qoymasaq, bir yerə çatmayacağıq. Problem kimi yanaşılmalıdır məsələlərə. Konkret ideya istiqamətləri, məqsədlər olmalıdır. Bu gün ədəbi prosesdə məsələn, "Ədəbiyyat qəzeti"ndə daha demokratik proseslər gedir, nəinki özünü ədəbi saytlar adlandırıb istər xarici, istər daxili qatlarda müəyyən dairələrin siyasətini yürüdən ünvanlarda. Ancaq mən hesab edirəm ki, bu gün Azərbaycan Yazıçılar Birliyinin çap məhsulları, ədəbi orqanları və əlbəttə ki, müqayisəsiz "Ədəbiyyat qəzeti" daha düzgün yoldadır. Müəyyən spekulyasiyalara girib təxribatlarla məşğul olan ədəbi saytlar bu gün özünü doğrultmur.

Əsəd Cahangir: - Gənclər səhv eləməlidir, bu onların yaşı ilə bağlıdır. Məncə, bu səhvlərə rəvac verənlərin səhvi daha böyükdür. Onları maddi və mənəvi cəhətdən dəstəkləyənlərin səhvi daha ciddidir. Məsələnin kökündə bu amil durur. Amma məncə, AYB orqanlarına qiymət verəndə "Kulis" ölçü olaraq götürülməməlidir. Fransanın, Rusiyanın, Türkiyənin ədəbi orqanlarına nəzərən yaxşı olmaq lazımdır. "Kulis" bizim ölçümüz deyil, tərəzimiz deyil. "Kulis"də indi cavanlar nəsə eləyirlər, yazırlar, bu da bir haldır. Yazırlar qoy yazsınlar. Amma mənim üçün tərəzi hətta özümün çalışdığım "Azərbaycan" jurnalı yox, "Ədəbiyyat qəzeti"dir.

Həmid Herisçi: - İndi bir cür inkarçılar var. Bunlara elə gəlir ki, hamını inkar eləyə bilərlər, bunları heç kim inkar eləyə bilməz. Mən həmişə yeniliyin tərəfdarı olmuşam, novator olmuşam. Həmişə bir çox "izm"lərin mövzularını mən gətirmişəm. Qorxmadan deyirəm, istəyirsiz yazmayın. Mən yenə də bu fikirdəyəm ki, inkarçıları tənqid eləmək lazımdır. İnkarçıların özünü inkar eləmək lazımdır. Mən onu deyirəm ki, bu gün Azərbaycanda əksər saytlarda ümumən yalançı ədəbi proses gedir. Mənim heç yadımdan çıxmaz. Belə bir söz işlətmişdilər ki, filankəsdən naftalin iyi gəlir, yəni ənənəni dolamaq üçün deyirdilər. Və bir gün S.Vurğunu tənqid eləyəndə mənim həyat yoldaşım, özü də qazaxlıdır, S.Vurğunun yaradıcılığını sevir.

Həmid Herisçi: - Ədəbiyyat klassisizmin monopoliyasında olmalıdır. Klassisizm də o vaxt klassisizm olur ki, o ilkin ilahi nöqtəylə əlaqəsini itirmir.

Yaxşı bir söz dedi. Dedi ki, mən milli-mənəvi dəyərlərimizi qorumaq xatirinə naftalin olmağa hazıram. Çox da yaxşı sözdür. Hərdən naftalin olmaq lazımdır güvələrə qarşı.

Elnarə Akimova: - İstəyərdim dil məsələsinə toxunaq. "İzm" məsələsi elədir ki, özü də çoxsaylı dil dəyişmələri üzərində gəlir. Rüstəm müəllim, XX əsr boyu bizdə dil dəyişmələri hansı mərhələdə olmuşdur? XX əsr boyu, yəni cərəyanların gətirdiyi dil dəyişimi olmuşdurmu? Mənə görə bu, XX əsrin birinci yarısında olmuşdu.

Rüstəm Kamal: - Təəssüf ki, bizdə hələ ənənə adı altında psevdomühafizəkarlıq da imkan vermədi ki, dilin bir çox qatları işləyə bilsin. Xüsusən nəsrdə poetik dillərin rakursunu dəyişmə ənənəsi zəif kimi görünür. Ayrı-ayrı uğurlu-uğursuz cəhdlər olub. Amma görümlü və uzun müddətli hadisəyə çevrilə bilmədi. Bunun da obyektiv və subyektiv səbəbləri var. Ona görə də süjetqurma texnologiyalarını və priyomlarını, üslub yeniliklərini kənardan gətirməli oluruq, yəni iqtibas mexanizmi bu zaman işə düşürdü. Düşünürəm ki, biz öz ədəbiyyatımızın, hətta klassik poeziyamızın daxili resurslarından yararlanmağı öyrənməliyik.

Təxminən 20 il bundan öncə hardasa oxumuşdum ki, Afrikada ibtidai

müzakirə saatı

icma quruluşundan qalma bir qəbilə tapıblar və təsəvvür edirsiniz, bu qəbilənin dilində "mavi" sözü yoxdur. Bu, dildəki "boşluq"dan (buna "lakun"da deyirlər) idi yoxsa gözün defekti idi? Əlbəttə, səbəb dildədir. Ad yoxdursa, deməli, hadisənin, mahiyyətin özü də yoxdur. Hər bir dil öz mətnini-öz dünyasını yaradır. Ədə-

Rüstəm Kamal: - Əslində ədəbiyyat tarixi stillərin, intonasiyaların tarixidir.

biyyat da belədir - həmin "boşluğ"u, "lakun"u tapmalıdır. əgər yoxdursa, özünün poetik dil imkanlarını səfərbər etməlidir, Onda da müvafiq təsnifat-təfsir adları, anlayışlar, terminlər tapılacaq.

Dili dəyişmək üçün köhnə ustaların "köhnə dili"ni yaxşı bilməlisən. Salvador Dali kimi, Vladimir Sorokin kimi. Necə ki, simfonik musiqi yazan bəstəkar xalq musiqisini mükəmməl bilir.

Aydın Talıbzadə: - Çox pessimistcəsinə danışırsınız. Əslində, biz dilə diqqətli olsaq, həmçinin görəcəyik ki, ədəbi dil nə qədər dəyişib 70-ci, 80-ci illərlə müqayisədə, mən hələ ondan o yana getmirəm. Bu gün Azərbaycan ədəbi dili daha mobil olub, daha uyuşqan, daha yumşaq olub. Biz bunu ya görmürük, ya da görmək istəmirik. Rüstəm Kamalın dediyi o psevdomühafizəkarlıq ucbatından. Kamal Abdulla, Niyazi Mehdi, Zeynal Məmmədli, elə mən özüm, Tehran Əlişanoğlu, Həmid Herisçi Azərbaycanın dil dənizinə yeni və güclü bir axın gətirdik. Məgər bu gün Aqşin, Xaqani Hass, Xanəmir, Şəhriyar Del Gerani dilimizdə yeni axın nümayəndələri kimi təsnif oluna bilməzmi? Onların dili onların özünəxas düşüncə tərzinin ifadəsidir. Biz bunları deyirikmi? Yox. Çünki fikirləşirik ki, görək bizim dediyimizə kim nə deyər.

Rüstəm Kamal: - Əslində, ədəbiyyat tarixi stillərin, intonasiyaların tarixidir. Bizdə də üslub tarixini iki vərəqə yerləşdirmək olar. İndi sovet hakimiyyətini söyürük ki, bizdə guya ədəbi eksperimentlərə imkan verilmədi. Amma sovet Rusiyasında da avanqardistlər var idi. Şoloxovla bərabər, Andrey Platonov "Çevenqur" Andrey Belıy "Peterburq" romanını yazırdı. Ancaq bizdə o hadisə baş tutmadı. Hətta biz uzun müddət qorxumuzdan ardıcıl sərbəst şeir yazmadıq.

Həmid Herisçi: - Mən burada kiçik bir haşiyə açım. Siz hətta dil məsələsinə də toxundunuz. Ancaq vacib bir yerə toxunmadız. Şəxsiyyət məsələsi. Bütün bu proseslərdə insan faktoru, şəxsiyyət faktoru olmasa, nə o siz dediyiniz dil prosesləri həll olunacaq, nə təsnifat həll olunacaq. Təcrübə göstərdi ki, bütün bu proseslərin önündə şəxsiyyət gedir. Ekstrim bir istedad. Məsələn rus ədəbiyyatını dartıb çəkən Mayakovski şəxsiyyəti olub.

Azər Turan: - Blok bu mənada deyirdi şəxsiyyət sənətkardan yüksəkdir.

Aydın Talıbzadə: - Bu, birmənalı verdiktdir, mən razılaşmıram: o asılıdır sən hansı paradiqmadan buna yanaşırsan. Şəxsiyyət faktorunu önə çəkirsiniz. Çox gözəl. Şəxsiyyət olmaq üçün gərək hər zaman özün olasan, olduğun kimi olasan. Daha fikirləşməyəsən, mən necə deyim ki, bu dediyimdən hər barədə yararlanım, faydalanım, kimlərəsə xoş olum. Mən indiyənəcən Azərbaycan ədəbiyyatında onu müşahidə eləmişəm ki, hansı ədəbiyyatçı vəzifədədirsə, güclü sosial statusa malikdirsə, bir qayda olaraq onun haqqında yazıb danışırlar. Bu da sovet dönəmindən qalma bir reliktdir.

Əsəd Cahangir: - Klassik ədəbiyyatımızın əsas məsələsi insanın özünü dərk etməsi və bundan keçərək Allahı dərk etməsi ideyası ilə bağlı-

Azər Turan: - Dil dəyişimi əlbəttə, olacaqdı. Təbii axarla davam etsəydi. Bu gün kimsə Cavidin dilini sintetik dil adlandıra bilər, Hüseynzadəni dilimizi anlaşılmaz bir hala gətirməkdə suçlaya bilər. Amma tutaq ki, Avropada dildəki Babil sintezinə görə heç kəs Coysu qınamır. Hətta Coys bəzən ən müxtəlif dillərdən yararlansa da qınanmır.

dır. Özünü və Allahı dərk edən insan yeni insan idi. Allahı və insanı özündə birləşdirən varlıq idi. Bu yeni insanı həm ədəbiyyatda yaradırdılar, həm də çiləxanada.

Aydın Talıbzadə: - Mübahisə üçün kifayət qədər əsas var. Ancaq mən məsələni uzaqlara aparmaq istəmirəm. Yalnız bir məsələni deyəcəyəm: klassik ədəbiyyatın idealı Məhəmməd peyğəmbər idi və bu paradiqmada yeni insandan söhbət gedə bilməzdi. Yəni məsələləri bir-birinə qarışdırmayaq.

Əsəd Cahangir: - Məhəmməd əleyhissəlam bəşər tarixində ən böyük inqilabçıdır. İnqilabçılıq isə ilk növbədə yenilik deməkdir.

Elnarə Akimova: - Sizə görə Azərbaycan ədəbiyyatı yüz illər boyu hansı xətt üzrə gəlir: dekadans yoxsa tərəqqi?

Həmid Herisçi: - Rəhmətlik atam Qafar Kəndli çox yaxşı demişdi ki, əgər Azərbaycan ədəbiyyatına diqqətlə baxsan, görərsən ki, bu yenilikçi ədəbiyyatdır. Çünki XI-XII əsrdəki ədəbi mühitdə ədəbiyyat mistika idi. Mistika simvolizmin əsasında idi. İlk olaraq Xaqani, Qətran Təbrizidən başlayır proses. Qətran Təbrizidən başlayır realizm. Yəni bunlar başladılar hökmdarlara mədhiyyələr yazanda real hadisələri, real döyüş səhnələrini, təbiət mənzərələrini yazmağa. Bu, Xaqanidə çox ciddi oldu. "Töhfətül-İraqeyn" sırf realistik əsərdir. Səyahətnamədir. Xaqaninin qəsidələri realistdir. Bunlar hamısı real hadisələrdir. O ədəbiyyatda görürük ki, Sənai, Əttar çox mistikdir. Gəlirik Nizamidə süjet, qəhrəman, müasir Avropa ədəbiyyatının tələb etdiyi bütün məsələlər XII əsrdə Nizami, Xaqani, Qətran tərəfindən həll olunmuşdu. O deyirdi ki, "tərkəne-səxənlik". Əslində bu nə deməkdir? Sırf simvolik ədəbiyyat idi. Bu məktəb istəmirdi realizmi. Deyirdi ki, əbədi mövzular var, süjet, qəhrəman lazım deyil, hər şey mistik olmalıdır. Bunun ilk dəfə belini qırıblar Azərbaycanda. Düzdür fars dilindədir, ancaq fərqlidir üslublar. Həddən artıq fərqlidir.

Aydın Talıbzadə: - Bütün bunları islam mədəniyyətinin kontekstindən ayırmaq bir o qədər də düzgün deyil. Orta çağlar. Yaxın Şərq ədəbiyyatı, ilk növbədə, islam düşüncəsinə refleksiyadır və Allahı, onun yaradıcılığını izah edib, şərh edib nəticəni nəsibətləşdirən ədəbiyyatdır.

Azər Turan: - Bu nə qədər davam elədi?

Həmid Herisçi: - Bu, təxminən məncə, Nəsimiyə qədər davam elədi. Nəsimi əslində o xətt deyildi. Sənai xətti də deyildi. Mən hesab edirəm ki, bu bizim böyük uğurumuzdur. Bizim ədəbiyyatımızın Xaqani, Nizami, Qətran sütunları var, bu gün dünya ədəbiyyatının qoyduğu məqsədlər artıq XI-XII əsrlərdə Azərbaycan ədəbiyyatında özünü doğrultmuşdu dünya çapında. "İsgəndərnamə" nə deməkdir? Nizaminin "İsgəndərnamə"si. Əvvələ süjetin təntənəsi. İstər Ərəstun fəlsəfəsinin yazılışı, istər Əflatun ədəbiyyatının fəlsəfəsi, bunların bir yerə gəlməyi bir mətndə. Tolerantlığa bax. Bunlar bir-birilərini inkar edirlər hər yerdə. Nizami onları bir yerə gətirir. Yarışdırır. Və realist mənzərələr, xüsusən İsgəndərin qıpçaq çölünə getməyi, orada döyüşlər, onlar çox ciddi tarixi sənədlərdir. Yəni mən demək istəyirəm ki, bizim ədəbiyyatımız çox qabaqcıl ədəbiyyatdır. Ədəbiyyatşünaslar yaxşı qiymət verməyiblər.

Aydın Talıbzadə: - Bu, əslində, XIX əsrə qədər davam elədi, M.F.Axundzadəyə qədər davam elədi. Yeni insana doğru çıxış məhz M.F.Axundzadə realizmindən başladı.

Əsəd Cahangir: - Həmidin dediyi o məsələ ki, var Nizamidə, yəni realistik ədəbiyyat elementləri, həyat mənzərələri, insan xarakterləri, süjet və sair Avropa romanında bir neçə əsr sonra meydana çıxan şeylərdir. Bunun fundamental səbəbi xristian dininin və islam dininin mahiyyətin-

Aydın Talıbzadə: - Elə bir nəsnə yoxdur ki, onu Azərbaycan dilində adekvat ifadə etmək mümkün olmasın.

dəki fərqdən irəli gəlirdi. Xristian dini tərki-dünya dindir. Bu dinin hakim olduğu min il ərzində, yəni V əsrdən XIV əsrə qədər Avropada heç bir ciddi ədəbiyyat nümunəsi yaranmadı. Çünki bu din israr edirdi ki, dünya fanidir, fani dünyaya zəhmət sərf etməyə dəyməz. İnsan özünü Tanrıya ibadətə həsr etməlidir.

Aydın Talıbzadə: - Mən burada Əsədə haqq verirəm: yaranmadı ona görə ki, ərəblər hələ qədim yunan mətnlərini Avropaya gətirməmişdilər. Avropa intibahını formalaşdıran başlıca amillərdən biri də məhz islam mədəniyyəti olub.

Azər Turan: - "İlahi komediya" sizcə, ciddi ədəbiyyat deyil?

Əsəd Cahangir: - Dantenin "İlahi komediya"sı xristianlıqdan intibaha keçid əsəridir. Formaca xristian simvolikası üzərində qurulsa da, məzmunca müəyyən qədər intibah ideyalarını əks etdirir. Yəni o körpüdür, yarı xristian, yarı intibah əsəridir. Məhz bu əsərdən sonra Avropa ədəbiyyatında xristianlıq bitir və intibah başlayır.

Azər Turan: - Amma "İlahi komediya"da xristian ehkamçılığının izləri də aşkar görünür. "Bir zamanlar üstünə Cəbrayılın şahpəri açılan Nazarətin çatmayırlar dadına..."

Əsəd Cahangir: - Xristian əsəri latınca yazılmalıdır, Dantenin əsəri italyanca yazılan ilk əsərdir. Milli dildə yazmaq Qərb intibahının ilk əlamətlərindəndir. Amma islam intibahının ölçüləri fərqlidir. Çünki islam özü bütün yerdə qalan dinlərdən fərqlidir. Məhəmməd əleyhissəlamın məşhur sözü var: "Heç vaxt ölməyəcəyin kimi işlə, sabah öləcəyin kimi ibadət et". Yəni dünyanın dünya yeri var, axirətin axirət yeri var. İslamın qızıl ortada dayanması onun ədəbiyyatına da ciddi təsir edib. Dünyəvi dindir İslam dini. Ən real dindir. İslam dini heç vaxt demir ki, tərki-dünya ol. Heç vaxt demir monastır yarat, get gir ora, dünyadan əlini üz və ancaq ibadətlə məşğul ol. Deyir bu dünyada insanların içində yaşa və ibadət elə. Həyatın içində ol. Bu İslam ədəbiyyatında intibah yaratdı. Yəni Avropa intibahı xristianlıqla mübarizədə meydana çıxmışdısa, Şərq intibahı İslamın özünün həyatsevər ruhundan doğulmuşdu. Buna görə xristian intibahı ifadəsi yoxdur, amma İslam intibahı ifadəsi tamamilə yerinə düşür. Bu intibah islamla birlikdə yarandı, Nizaminin yaşadığı dövrdə öz zirvəsinə çatdı. Həmidin Nizami yaradıcılığında gördüyü realist romançılıq elementləri, süjet, xarakter və sair kimi cəhətlər intibah ədəbiyyatının xüsusiyyətləri idi. Xristianlıqda bu Nizamidən bir əsr sonra Dante ilə yaranmağa başladı. Sonra Petrarka, Bokkaçço, Çoser, Rable gəlir, sonra Şekspir, Servantes gəlir. Yəni Avropa intibahı xristianlığın zəifləməsi ilə düz mütənasibdir. Çünki xristianlıq zəiflədikdən sonra ədəbiyyata dünyəvi mövzular gələ bilərdi və intibah ilk öncə dünyəvi mövzularla bağlıdır.

Aydın Talıbzadə: - Mən üzr istəyirəm, "İslam intibahı" anlayışı düzgün anlayış deyil: bunu bir dəfə Adam Mets elmi ədəbiyyata "Müsəlman renessansı" adı ilə daxil edib və sonradan bu yanlışlıq baş alıb gedib. İslamda intibah ola bilməz: çünki bu mədəniyyət qədim yunanların mədəniyyətindən fərqli insan ətrafında deyil, Tanrı ətrafında fırlanır.

Əsəd Cahangir: - Əgər intibah anlayışına Qərb modeli ilə yanaşsaq, siz haqlısınız. Amma niyə Şərqə Qərb modeli ilə yanaşaq ki? Bu gün Şərqə Qərb modeli ilə yanaşmaq olar, çünki Şərq bu gün Qərbin ardınca gedir. Amma Nizami dövründə tam əksinə idi. Qərb Şərqin ardınca gedirdi. Ona görə də tarixi dialektik məntiq sizin bu yanaşmanızdan fərqlidir.

Şərqdə intibah insanın Tanrı ilə birliyində, Qərbdə isə insanın tanrıdan ayrılmasında idi.

Azər Turan: - Biz Nizami ilə, o böyük ədəbiyyatımızla indi dünyanın harasındayıq?

Həmid Herisçi: - Gəlin boyumuza alaq. Roma papası II Pavel Bakıya gələndə elə bil Nizaminin yanına gəlmişdi, nəinki Azərbaycana. Çünki Nizamidən sitat oxudu və dedi mən Nizami məmləkətinə gəlmişəm. Dünya çapında bizim pasportumuz Nizamidir. Orda nə geri var, nə ön var, orda əbədiyyət var. Yəni coğrafi qiblələr nisbidir. O nöqtədə biz zaman-məkan anlayışlarından üstünük. Söhbətimin sonunda onu demək istəyirəm ki, bu gün "izm"lərlə çox məşğul olan, indi də "izm"in içində olan bir insan kimi mənim son qənaətim budur ki, ədəbiyyat klassisizmin monopoliyasında olmalıdır. Klassisizm də o vaxt klassisizm olur ki, o ilkin ilahi nöqtəylə əlaqəsini itirmir. İlirəndə epiqonçuluğa çevrilir və ona cavab olaraq "izm" yaranır. Ancaq yenə də prosesi bütöv görərək mən deyirəm ki, yazılı ədəbiyyatın klassisizmin əlindən alınıb liberalların, demokratların əlinə verilməyi heç də özünün doğrultmadı. Söz qiymətdən düşdü, kütləvi ədəbiyyat yarandı,

(Davamı 18-ci səhifədə)

"Ədəbiyyat qəzeti"nin müzakirə saatı

(Əvvəli 17-ci səhifədə)

oyunbazlıq başladı, feysbuk, tvitter oyunbazlığı - hamı yazıçıdır, hamı yaza bilər, hamı kitab buraxa bilər, hamı hekayə yaza bilər, ədəbi top onluqlar başladı, halbuki şou-biznesla ədəbiyyat birləşdi. Mən yenə deyirəm, "Ədəbiyyat qəzeti", "Azərbaycan" jurnalı, yəni AYB-nin bu klassik orqanları daha hörmətlidir. Ədəbi proses heç vaxt təsadüfi elektron ünvanlarda, saytlarda qalmayacaq. Ədəbiyyat saytlarda yaranmır, ədəbiyyat həmişə kağız üzərində yaranır.

Aydın Talıbzadə: - Bir dəqiqə. Mən həmişə düz danışmışam və mənim həmişə bir üzüm olub. Mən "Azərbaycan" jurnalında çox çap olunan müəlliflərdən biriyəm. "Ədəbiyyat qəzeti"nin qapıları da mənim üçün hər zaman açıqdır. Ancaq mən Kulis.az, Sim-sim.az saytlarında gedən ədəbi prosesin üstündən xətt çəkə bilmərəm. Ədəbi proses bu gün bu saytlarda güzgülənir. Bu yaxınlarda Aqşinin Adonisdən elədiyi bir tərcüməni Kulis.az-da oxudum. Birə-bir tərcümə idi, əla tərcümə idi, ləzzət aldım. Bax, biz çox zaman nədənsə ləzzət aldığımızı deməyə də qorxuruq. Öz iddiamız bunu deməyə bizə imkan vermir. Bu baxımdan mən Əli Əmirlini çox azad adam gördüm: ədəbi mətndən aldığı zövqü, ləzzəti heç vaxt gizlətmir, hər zaman dilə gətirir, heç nəyə paxıllanmır. Mən Şərif Ağayarın, Qanturalının, Mirmehdi Ağaoğlunun, Qismətin, Aliyənin və digərlərinin yazılarında dəyərli həmişə nəsə tapıram, onların predmetə yanaşma yönündə bir orijinallıq, bir təzəlik görürəm.

Elnarə Akimova: - Əsəd bəy, son olaraq belə bir suala cavab verməyinizi istəyirəm. Bu gün dünya ədəbi dəyərlərindən nə qədər yararlana bilirik?

Əsəd Cahangir: - Bu gün olduğu qədər Azərbaycan ədəbiyyatı və mədəniyyəti heç vaxt dünya mədəniyyəti ilə əlaqədə olmayıbdır. Bu da təbiidir. Çünki sovet rejimi dövründə qapalı mədəniyyət daşıyıcısı idik. İqtisadi cəhətdən də, siyasi cəhətdən də, kulturoloji baxımdan da təcrid olunmuşduq. 90-cı illərdə dünyadan bizə bədii-kulturoloji, siyasi, elmi-fəlsəfi, dini təfəkkür axını gəldi. Bu gün bizdən dünyaya alimlər gedir, ordan bura gəlir, tərcümə işi sürətlənir. Nazirlər Kabineti yanında Afaq xanım Məsud başda olmaqla Tərcümə Mərkəzi yaradılıb. Dünya dillərini bilən gənclik yetişib: İngilis, ispan, alman, fransız, hətta Çin dilini bilən mütəxəssislər formalaşır. Artıq rus dili vasitəsilə deyil, birbaşa orijinaldan tərcümələr edilir dilimizə. Biz sovet rejimi dağılandan sonra dünya ilə ikinci bir əlaqə yolu əldə etdik. Bu, Türkiyədir, Türkiyə mədəniyyətidir. Türk dili vasitəsilə bizim dünyaya çıxışımız başlayır. Çünki dünyada yaradılan ən vacib ədəbi və fəlsəfi nümunələr dərhal Türkiyə türkcəsinə tərcümə edilir.

Amma Həmidin də, Rüstəmin də tamamilə haqlı olaraq dedikləri kimi bəzən kəmiyyət çoxluğu keyfiyyət azlığına gətirir çıxarır. Bəzən demokratiya anarxiya kimi dərk edilir, keçmişə qarşı müqəddəs üsyankarlıq bayağı üsyanbazlığa çevrilir, həqiqi istedaddan doğan məhsuldarlıq qrafomanlıqla əvəzlənir. Bəzən haqqı olan yox, olmayanlar üsyan edir. Məsələn, Aydın müəllimin təqdir etdikləri arasında haqqı olanlarla yanaşı haqqı olmayanlar da var. Ona görə istər Həmid Herisçinin yeni nəsil yazarlara radikal tənqidi münasibətinə, istərsə də Aydın müəllimin ifrat təqdiredici fikrinə redaktənin tərəfdarıyam. Axı yaşımızın, başımızın elə vaxtı deyil ki, kimsə hardansa talan-tələsik elədiyi plagiatla bizi çaşdıra bilsin. Yeni nəsil yazarların ən ciddi problemlərindən biri odur ki, özlərini fərd kimi yox, dəstə üzvü kimi dərk edirlər. Ədəbiyyat isə əvvəlcə fərdi, sonra ictimai hadisədir. Özünüdərk, insanı dərk prosesi zəif gedir. Ədəbiyyat isə özünüdərk, insanı dərk deməkdir.

Elnarə Akimova: - Bayaq dediniz ki, ədəbiyyatşünaslıq elmimiz dünya ədəbiyyatşünaslığı deyilən proseslərdən bixəbərdir. Əsəd bəy, sizə elə gəlmirmi ki, bunda həm də Tərcümə Mərkəzinin günahı var ki, bu gün tərcüməni tənzimləyə bilmir? Yəni bayaq adlarını çəkdiyiniz ədəbiyyatşünasların əsərlərini tərcümə etdirib dövriyyəyə buraxmaq Tərcümə Mərkəzinin işi deyilmi?

Əsəd Cahangir: - Bu suala ən yaxşı cavabı təbii ki, Mərkəzin rəhbərliyi, yaxud işçiləri verə bilər. Mənim cavabım ümumi xarakter daşıyacaq. Uzun müddət Tərcümə Mərkəzinin elə bir maddi dəstəyi olmayıb. Bu dəstəyi əldə edəndən sonra qısa müddətdə xeyli fəlsəfi, elmi və bədii ədəbiyyat çevrilib. Müasir Azərbaycan ədəbiyyatı və klassik Azərbaycan ədəbiyyatının antologiyaları, gənc yazarların xüsusi antologiyası buraxılıb. Afaq xanımın böyük etimadı sayəsində gənclərin antologiyasına ön sözü mən yazmışam. Almanaxın materialları ilə bir küll halında tanış olduqca bir daha əmin oldum ki, istedadlı gənclik yetişir. Cavid Zeynallı, İkinci Mahmud, Müşfiq Şükürlü və digərləri nəsrdə, Könül Arif, Emin Piri, Fərid Hüseyn, Xatirə Nurgül, Aqşin Evrən, Alik Əlioğlu, Fəridə Məmmədova və digərləri isə şeirdə öz mövzu, dil və üslubları ilə seçilirlər.

Həmid Herisçi: - Ədəbi gəncliyi-filanı çox körükləmə. Tarix göstərdi ki, o dövrkü ədəbi gənclik müsbət anlayış idi, o yavaş-yavaş keçmişdə qaldı. Bu gün ədəbi gənclik ədəbi mancədir. Özünü doğrultmur.

Əsəd Cahangir: - Mənim 50 yaşım var, 1991-ci ildə ilk yazım dərc olunub. İyirmi altı illik ədəbi fəaliyyətimdə bir ədəbiyyatşünas olaraq əgər gəncliyə düzgün yol göstərə bilməmişəmsə, deməli, gəncliyin indiki durumunda günahı həm də özümdə axtarmalıyam. Odur ki, səni əsas etibarilə haqlı saysam da, gəncləri sənin qədər kəskin tənqid edə bilmirəm. Amma təbii ki, onları Aydın müəllim kimi idealizə etməyi, bəzən olmayan sifətləri onlara şamil etməyi də ən optimal yol saymıram.

Azər Turan: - Gəlin, gəncləri müzakirə eləməyək burda. Konkret "izm"lərdən danışaq.

Əsəd Cahangir: - İzmlər yenilik deməkdir, yeniliyi isə ilk öncə gənclər qəbul edir. Ona görə "izm" söhbətinin gənclər haqda söhbətə gətirib çıxarması məntiqidir, məncə.

Həmid Herisçi: - Gənclik "izm" də yarada bilmədi axı. Azərbaycanda olan ədəbi gənclik heç bir "izm" yarada bilmədi.

Azər Turan: - Azərbaycanda gərək bir Yaspers olsun ki, "izm" yaransın da.

Əsəd Cahangir: - Tam haqlısız Azər müəllim. Mən mövzumuza qayıtmaq istəyirəm. Bayaq Elnarə xanım ədəbiyyatşünaslıqla bağlı çox ciddi bir məsələyə toxundu. Son bir əsrdə Qərb ədəbi fikrini alimlər irəli aparıb - Levi Stross, Bart, Kristeva, Liotar, Hassan, Derrida, Bodriyar, Batay, Lakan, Fuko, Eko və sair. 50-ci illərdən sonra - strukturalistlər, poststrukturalistlər, dekonstruktivistlər, postmodernistlər bir-birini əvəz edib. 50-ci illərdən sonrakı nəzəri, fəlsəfi təfəkkürün gedişindən, müxtəlif izmlərin bir-birini əvəz etməsinin inkişaf mexanizmindən bizim ədəbiyyatşünaslıq bixəbərdir. Boşluq birinci oradan yaranır. Mən bütün bu qeyri-müəyyən fikir dartışmalarının səbəbini filosof və ədəbiyyatşünaslarda görürəm. Ən böyük problemimiz odur ki, fəlsəfi təfəkkürümüz formalaşmır. Biz Kantı, Hegeli Azərbaycan dilinə çevirə bilmirik.

Rüstəm Kamal: - Azərbaycan dili özü də hazır olmalıdır bu tərcümələrə ola bilsin ki, Haydeggeri qazax Türkiyə türkcəsində tərcümə etmək daha asandır, nəinki bizim dildə? Fəlsəfə mətnlərinə hər dilin resursları ilə tərcümə etmək olmur. Ə.Cahangir fəlsəfə və poetik mətnlərin tərcümə olunmasının vacibliyindən danışdı. Tərcümə mühüm mədəni hadisədir. Yapon şeirini rus dilindən tərcümə etməklə xeyku, tanka yazırlar - guya poetik dilimizin imkanlarını genişləndiririlər. Ay qardaş, Füzuli, Nəsimi, Vaqif tərcümə oxuyurdu? Yalnız O.Mandelştam "İlahi komediyanı" oxuması üçün italyan dilini öyrənmişdi. Anna Axmatova evində, kitab rəfində bir dənə tərcümə şeir kitabı saxlamırdı. Şekspiri ingiliscə oxuyurdu... Ona görə də böyükdürlər.

Aydın Talıbzadə: - Günahı dilin üstünə atmayaq. Elə bir nəsnə yoxdur ki, onu Azərbaycan dilində adekvat ifadə etmək mümkün olmasın. Problem fərd problemidir, sosial təminat problemidir, istedad, bilgi və dünyagörüşü problemidir.

Azər Turan: - Hartman dünyasını dəyişəndə Əli bəy Hüseynzadə bir məqalə yazıb: "Ziştbin bir filosofun vəfatı". Orada məsələ belə qoyulur ki, Azərbaycanda bizim fəlsəfə dilimiz yoxdur. Fəlsəfə dilimiz olmadığına görə məsələn, fövqəlidrakla mafövqəl idrak arasındakı fərqi dərk edə bilmirik. Deməli, bizdə yüz ildir ki, bu proses gedir. Problem çözülmür.

Həmid Herisçi: - Uzun müddət Azərbaycan xalqı bilinqvistik ədəbiyyat olub. Yarı ərəbcə, yarı farsca, sonra ruslarla şərik olub. Bizim böyüklüyümüz onda olub ki, bizdə bu sahədə müxtəlif dillərdən istifadə edilib. Dünyada elə bircə işraqilər fəlsəfəsi bəsdir ki, elə hamıya deyək ki, biz kimik.

Aydın Talıbzadə: - Dilin assimilyativ gücünün artmasına çalışmaq lazımdır.

Rüstəm Kamal: - Dilin dəyişmə təcrübəsi deyəndə nəyi nəzərdə tutursan? İkinci Dünya savaşı, 37-ci ilin repressiyaları, 48-ci ilin köçürülmələri, qaçqınlıq-didərginlik şəxsi yaşantı təcrübəsi poetik dildə adekvat ifadəsini tapdımı? Axı travmatik təcrübəni ənənəvi vasitələrlə vermək çətindir. Ona görə də 20 Yanvardan sonra saxta sentimental-patiotik mətnlərdən başqa heç nə yazılmadı - çoxusu da makulaturadır...

Bir dəfə Klod Lantsmanın "Şoa" filminə baxırdım. Dəhşətli filmdir, 1985-ci ildə çəkilib. Rejissor ölüm düşərgələrində keçmiş insanları eyni bir xatirəni dəfələrlə danışmağa məcbur edir və kamera ilə onların susmalarını, nitqlərindəki tutulmaları və "tıxac"ları qeydə alır, yəni dil yaşanılmış travmanın öhdəsindən gələ bilmir...

Daha bir misal - Raul Selanın bioqrafiyasında belə təcrübə var; atası Dahau ölüm düşərgəsində anası isə Osvensimdə həlak olmuşdu. Keçmişin bu dəhşətli sarsıntıları onu gələcəyə buraxmırdı, nəticədə ona başqa dil verdi. Bu dilin travma təcrübəsi onu yaşamağa qoymadı - özünü Sena çayına atdı.

Oxşar hadisəni poetik dilimizdə müşahidə edirikmi? Dil başımıza gələn o faciələrə şahidlik edə bilirmi? Düşünürəm ki, biz ağrılarımızın poeziyada adekvat ifadə dilini tapmaqda sanki çətinlik çəkirik. Dil dəyişməlidir deyəndə bunu nəzərdə tuturam. Həm nəsrdə, həm də poeziyada üslubi priyomlar başqa söhbətin mövzusudur.

Azər Turan: - Bizdə ədəbiyyatşünaslıqda qəribə bir proses də gedir. 50 il, 100 il qabaqkı prosesdə ədəbi düşüncədə nəyisə axtarırıq. Məsələn, deyirik ki, modernizm cizgisi filankəsdə var idi... Olmayıb. Çünki bunun öz zamanı var, bunlar öz zamanlarının yetirməsidir. Modernləşmə hələ modernizm deyil.

Əsəd Cahangir: - Əlbəttə, tamamilə doğrudur. Hər şeyə öz zamanının tələbləri ilə yanaşmalıyıq. Axundovun XIX əsrin ortalarında gördüyü işləri XXI əsrdə durub təftiş etmək metodoloji yöndən qüsurludur. Amma onu bütləşdirmək də yanlışdır.

Elnarə Akimova: - Axı kim bütləşdirir Axundzadəni? Xidmətləri etiraf olunmalıdı da.

Əsəd Cahangir: - Yox, bütləşdirirlər, Elnarə xanım. Məsələn, mənim Axundov haqqındakı bu çox ədalətli və zəruri tənqidi qeydlərimə reaksiyalardan siz də görəcəksiniz bu bütləşdirməni. Mənə elə gəlir ki, ümumən maarifçilik rədd edilməməlidir. İnsan nə qədər var, öyrənəcək. Çünki insanın ağlı naqisdir. Allah deyil ki, o hər şeyi bilsin. Deməli, idrak daim yeniləşməlidir. Odur ki, tənqid ümumiyyətlə, maarifçilik yox, klassik maarifçiliyə aiddir. İndi Axundov maarifçiliyi yox, neomaarifçilik zamanıdır. Bir çox anlayışlara neomaarifçi yöndən yenidən baxmaq lazımdır. Neomaarifçilik insanın özünüdərkinin neomərhələsidir. Bu mərhələnin əsasında sadəcə insan yox, postinsan dayanır.

Həmid Herisçi: - Siz dediyiniz kimi indi yeni tələblər yaranıb. Məsələn, tradisionalizm Azərbaycan ədəbiyyatında öz əksini tapır. Bizim bə liberallar və demokratlar, bizim Axundovçular ömründə Rene Genon ənənələrini ədəbiyyata gətirən deyillər. Çünki bu ziddir onlara. Neomaarifçilik lazımdır. Buna ciddi ehtiyac yaranıb.

Elnarə Akimova: - 60-cıları neomaarifçi adlandıran yazılar da yazılmışdı 2000-ci illərin əvvəllərində. Həmid bəy, siz razılaşırsız bu fikirlə?

Həmid Herisçi: - Yox, bu əslində neomaarifçilik deyildi. Məncə, bizim 60-cıların ən böyük günahı klassik ədəbiyyatla irtibat nöqtələrini tapmamaq, müqəddəs kitablarla dialoq qura bilməmək və nihilizmin qurbanına çevrilmək, o cümlədən ekzistensializmi də mən nihilizmin bir forması bilirəm. A.Hitlerdən qorxu onları bütün bu ciddi məsələlərdən qorxuya salmışdı. Hər bir diskurs onlarda qorxu yaradırdı. Ekzistensializm 60-cı illərdə özünü əks elədi bizim yazıçıların əsərlərində. O dövrdə şamanizm də olubdur. Məsələn, Əkrəm Əylisli. O da düzgün deyil. İlk növbədə, dünya ədəbiyyatına müqəddəs kitablarla və müqəddəs ənənə ilə rabitə qurulmalı idi. Bu rabitə bizdə kəsilmişdi. 60-cılar rabitəni bərpa eləməyiblər. Buna şərq ədəbiyyatında irfan deyirlər. Avropada metafizika deyirlər.

Elnarə Akimova: - Bu rabitə baş tuta bildi, ümumiyyətlə, nə vaxt baş tutdu?

Əsəd Cahangir: - 90-cı illərdən sonra ancaq.

Həmid Herisçi: - Mən həmişə irfanla dialoqda olmuşam. Xüsusən mənim şeirlərimdə, hekayələrimdə, romanlarımda həmişə metafizika ilə bir dialoq var. Mən həmişə hesab eləmişəm ki, üç-dörd mətn olmalıdır. Bunlardan biri irfani mətndir. İrfani mətn bizdə yoxdur. Metafizika xalqları birləşdirir, fizika ayırır. Bu çox ciddidir. Bizim ədəbiyyat metafizikadan bu cür əlaqəyə girə bilmədi 60-cı illərdə.

Əsəd Cahangir: - Buna görə onları qınamaq olmaz. Ateist mühitdən çıxmışdılar, keçmişlə əlaqələri kəsilmişdi. Biz onların 60-cı illər fəaliyyətinin qiymətini verib, bugünkü fəaliyyətlərinə tənqidi yanaşa bilərik. Bunlar bir az fərqli şeylərdir. Amma hətta o ateist mühitdə də onların ən qabaqcıl dünyagörüşə malik təmsilçiləri dediyin o irfan düşüncəsinin daşıyıcıları idi. Çünki beş-on illik saxta kommunist inancına yox, neçə minillik xalq inancına söykənirdilər. Məsələn, Elçinin "Mahmud və Məryəm" romanı folklor əsasında yazılmış irfan romanı idi. Həmin idrak bazası olmasaydı, Elçin bu gün birdən-birə "Baş" kimi mürəkkəb metafizik-irfani roman yaza bilməzdi. Bu romanla təkcə bir yazıçının yaradıcılığında yox, ümumən bədii düşüncəmizdə tamamilə yeni mərhələ - metafizik realizm başlayır.

Elnarə Akimova: - Məncə, artıq yekunlaşdırsaq yaxşıdır. Çünki cərəyanlar məsələsi elədir ki, çözdükcə şaxələnir. Zamanla çox problemlər öz həllini tapacaq yəqin ki. Hər birinizə bir daha təşəkkür edir və uğurlar arzulayırıq!